Azərbaycan Respublikasının Dövlət
Statistika Komitəsinin 24 noyabr 2014-cü il
tarixli 36/09 №-li qərar ilə təsdiq edilmişdir.

**“Bədən tərbiyəsi və idman haqqında”**
**1-idman №-li illik rəsmi statistika hesabatının doldurulmasına dair**

# GÖSTƏRİŞ

Azərbaycan Respublikasının “Bədən tərbiyəsi və idman haqqında” 30 iyun 2009-cu il tarixli Qanununun 4.0.24-cü bəndinə uyğun olaraq ölkə ərazisində fəaliyyət göstərən, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün bədən tərbiyəsi və idman yönümlü təşkilatlar, müxtəlif tipli idman məktəbləri il ərzindəki fəaliyyətlərinin yekunları haqqında təsdiq edilmiş forma əsasında statistik hesabatlar hazırlamalı və yerli gənclər və idman (baş) idarələrinə təqdim etməlidirlər.

1-idman nömrəli hesabat formasının müvafiq sətirlərində təlim-məşq, idman sağlamlıq və yarış keçirilməsi üçün nəzərdə tutulan, idman növləri üzrə qaydalara cavab verən, pasportu və yaxud uçot vərəqəsi olan, müəyyən olunmuş qaydada bədən tərbiyəsi və idman üzrə dövlət idarəetmə orqanlarında qeydiyyatdan keçmiş idman obyektlərinin, eləcə də məktəbəqədər, ümumi, *məktəbdənkənar*, *peşə*, orta ixtisas və ali təhsil müəssisələrinin, *əlilliyi olan şəxslərlə* işləyən idman təşkilatlarının, əhali arasında bədən tərbiyəsi və idman üzrə iş aparan müvafiq icra hakimiyyəti orqanlarının və bələdiyyələrin öz fəaliyyətləri barədə məlumatları göstərilir.

Hesabatda mənsubiyyətindən asılı olmayaraq fəaliyyət göstərən və yaxud əsaslı təmirdə olan bütün idman obyektləri qeydə alınmalıdır.

Müəssisə, təşkilat və ya təhsil ocağının bir neçə idman obyekti olduğu halda, həmin müəssisənin məsul işçisi hesabat formasının I-III və V bölmələrinin müvafiq sətirlərini dolduraraq onların cəmlərini 1-ci, 26-cı, 38-ci və 112-ci sətirlərdə göstərməlidir. IV bölmədə idman növləri üzrə məşğul olanların cəmi 111-ci sətirdə verilməlidir.

## I bölmə. İdman qurğuları və bədən tərbiyəsi-sağlamlıq mərkəzləri

Bu bölmə 6 sütun və 25 sətirdən ibarətdir. 1-ci sütunda idman obyektlərinin cəmi, 2,3 və 4-cü sütunlarda obyektlərin mülkiyyət forması üzrə bölgüsü, 5-ci sütunda isə kənd yerlərində yerləşən obyektlərin sayı göstərilir. 6-cı sütunda isə bundan əvvəlki 1-5-ci sütunlarda göstərilmiş idman obyektlərinin ümumi göstəricilərindən hesabat ili ərzində istifadəyə verilmiş obyektlərin ümumi sayı göstərilir.

I bölmənin 1-ci sətirində “İdman qurğularının sayı-cəmi” göstərilir, bu göstərici 2-7, 12, 13, 16-20 və 25-ci sətirlərin cəmindən ibarətdir.

2-ci sətir “İdman sarayları” idman yarışlarının, sərgi və konsert proqramlarının keçirilməsi üçün geniş auditoriya kütləsinə malik olan obyektləri əhatə edir.

3-cü sətirdə “Olimpiya İdman kompleksləri” Olimpiya İdman Kompleksi statusuna malik olan obyektlər göstərilir.

4-cü sətirdə tribunalarında 1500 və daha çox yer olan futbol meydançaları, yüngül atletika məşğələləri keçirmək üçün yer, tamaşaçılar üçün tribunaları olan obyektlər və 5-ci sətirdə tribunalarında 1500-dən aşağı yer olan futbol meydançaları və 1000-ə qədər tamaşaçı tutumlu stadionlar, 6-cı sətirdə isə kompleks idman obyektləri göstərilir (kompleks idman qurğusu - bir neçə idman növü üzrə məşğələlərin aparılması qabiliyyətinə malik olan idman obyekti kimi nəzərdə tutulur) .

7-ci sətirdə idman zallarının cəmi, 8-11-ci sətirlərdə isə onların müvafiq sahələrə görə (8-ci sətirdə 42x24m, 9-cu sətirdə 36x18m və ya 30x18m yaxud 30x15m, 10-cu sətirdə 9x18 m və ya 12x24 m və 11-ci sətirdə sair ölçüdə) bölgüsü qeyd olunur. İdman zallarına təlim-məşq məqsədi üçün

universal təlimlər və ya müəyyən olunmuş idman növünə görə açıq və ya örtülü idman obyektləri daxildir.

12–ci sətirdə atıcılıq tirləri-idman silahlarından atəş açmaq üçün örtülü və ya açıq obyektlər;

13–15-ci sətirlərdə müxtəlif sahəli üzgüçülük hovuzlarının cəmi, onlardan 50 m uzunluqda olanlar və üzgüçülük hovuzlarının cəmindən örtülü üzgüçülük hovuzları;

16–cı sətirdə sadə idman qurğuları - voleybol, basketbol, badminton, tennis, əl topu, otüstü xokkey, futbol, reqbi idman növləri üçün meydançalar nəzərdə tutulur;

17-ci sətirdə velotreklər, yəni açıq və ya bağlı məkanlarda maili bucaq altında enişli və yoxuşlu yürüş zolağı olan idman obyektləri;

18-ci sətirdə xizək sürmə bazaları - qış idman oyunları üçün nəzərdə tutulan dağ xizəyi, xizək ötüşməsi və xizəklə tramplindən tullanmaq kimi idman növləri ilə məşqul olmaq qabiliyyətinə malik olan obyektlər;

19-cu sətirdə buz zalı - fiqurlu konki sürmə, fristayl,  buzüstü xokkey kimi idman növləri ilə məşqul olmaq qabiliyyətinə malik olan obyektlər nəzərdə tutulur.

20–ci sətirdə bədən tərbiyəsi – sağlamlıq mərkəzlərinin cəmi və onlara aid olan:

21–ci sətirdə şahmat binaları – şahmat və dama üzrə Uşaq – Gənclər idman məktəblərinin binalarının;

22-ci sətirdə aerobika zalları, əhali üçün bədən tərbiyəsi - sağlamlıq yönümlü obyektlərin;

23-cü sətirdə müvafiq idman avadanlıqları ilə quraşdırılmış trenajor zallarının (fitnes zalları);

24-cü sətirdə əhaliyə xidmət üçün tikilmiş tennis kortlarının sayı göstərilir.

25-ci sətirdə isə bu bölmənin əvvəlki sətirlərində əks olunmayan idman obyektlərinin (məsələn: yaxt klublar, təlim-məşq zalları və digərləri) sayı qeyd olunur.

1-idman nömrəli "Bədən tərbiyəsi və idman haqqında hesabat" formasının I bölməsinin doldurulması zamanı, iki və daha artıq idman obyekti olan müəssisə və təşkilatlar onlara məxsus hər bir obyekt üzrə məlumatları cəmləyərək hesabatda göstərməlidirlər.

Məsələn, kənd yerində yerləşən və sahəsi 9x18 m olan bir idman zalı və  bir atıcılıq tirinin sahibkarı hesabatı tərtib edərkən idman zalı üzrə 10-cu sətrin 1,3 və 5-ci sütunlarını doldurmalı, 2-ci və 4-cü sütun isə boş qalmalıdır. 10-cu sətirin göstəricilərini olduğu kimi 7-ci sətirdə də təkrar etməlidir. Atıcılıq tiri üzrə 12-ci sətrin 1, 3 və 5-ci sütunlarını doldurmalı, 2-ci və 4-cü sütun isə yenə də boş qalmalıdır. Bundan sonra isə 7-ci və 12-ci sütunların cəmi müvafiq olaraq, 1-ci sətrin 1, 3 və 5-ci sütunlarında qeyd edilməlidir.

## II bölmə. Bədən tərbiyəsi və idmanla məşğul olanlar

II bölmədə əhalinin müxtəlif yaş qrupları arasında müəssisə, təşkilat və təhsil ocaqları üzrə idman və bədən tərbiyəsi ilə məşğul olanların sayı öz əksini tapmalıdır. II bölmə   12  sətirdən (26-37) və 11 sütundan (1-11) ibarətdir.

Bədən tərbiyəsi və idmanla məşğul olanlar haqqında məlumatlar qrup, bölmə və seksiyaların hesabat jurnaları əsasında doldurulur. Bir neçə idman növü ilə məşğul olanlar yalnız bir idman növü üzrə qeydə alınır. 26-cı sətir üzrə göstəricilər 27-37-ci sətirlərdə qeyd olunan göstəricilərin cəminə bərabər olmalıdır. Bu bölmənin 26-cı sətrinin 1-ci sütununda hesabat təqdim edən təşkilatın əhatə etdiyi müəssisələrin, təşkilatların, təhsil müəssisələrinin, birliklərin və s. bütövlükdə ümum sayı göstərilir. 27-37-ci sətirlərin 1-ci sütunları ilə müvafiq təşkilatların ümumi sayı göstərilir. Bu bölmənin 26-cı sətrinin 2-ci sütununda müəssisə, təşkilat və təhsil ocaqlarında bədən tərbiyəsi, eləcə də idmanla məşğul olanların ümumi sayı qeyd olunduğundan bu göstərici, təkcə idmanla məşğul olanların sayını əks etdirən IV bölmənin 111-ci sətrinin 2-ci sütunundakı göstəricilərdən yüksək olmalıdır.

27-ci sətirdə məktəbəqədər təhsil müəssisələrində, 28-ci sətirdə ümumi təhsil müəssisələrində, 29-cu sətirdə *peşə təhsili* müəssisələrində*,* 30-cu sətirdə orta ixtisas təhsil müəssisələrində, 31-ci sətirdə ali təhsil müəssisələrində, 32-ci sətirdə *məktəbdənkənar təhsil müəssisələrində*, 33-cü sətirdə bədən tərbiyəsi kollektivlərində (bədən tərbiyəsi və idman siyasətini həyata keçirən dövlət orqanları

və bələdiyyə nəzdində olan nümayəndəliklər, mənzil kommunal təsərrüfat idarələrinin nəzdində olan kollektivlər, mülkiyyətindən asılı olmayaraq bədən tərbiyəsi-idman təşkilatları, idmançılar və onların kollektivlərində), 34-cü sətirdə idman klublarında, 35-cü sətirdə idman cəmiyyətlərində (o cümlədən İdman Sağlamlıq Mərkəzlərində), 36-cı sətirdə Olimpiya idman Komplekslərində və 37-ci sətirdə digər təşkilatlarda (bədən tərbiyəsi və idman yönümlü, lakin bu siyahıda adı göstərilməmiş dövlət və qeyri-dövlət təşkilatları) bədən tərbiyəsi və idmanla məşğul olanlar barədə məlumatlar nəzərdə tutulur.

2-ci sütunda - idman növləri üzrə bölmələrdə, qruplarda, seksiyalarda, klublarda, bədən tərbiyəsi-sağlamlıq yönümlü qruplarda məşğul olanların ümumi sayı nəzərdə tutulur.

2-ci sütunda qeyd olunmuş bədən tərbiyəsi ilə məşğul olanların ümumi say tərkibindən:

3-cü sütunda qadınların sayı;

4-cü sütunda *əlilliyi olan şəxslərin* sayı;

5-8-ci sütunlarda müvafiq olaraq, 3-5, 6-13, 14-17, 18-29 yaşda olanlar barədə məlumatlar;

9-cu sütunda isə bütün tədris ocaqlarında dərs ili müddətində bədən tərbiyəsi dərslərində iştirak edən şagird və tələbələrin sayı göstərilir. 9-cu sütun üzrə 26-31-ci sətirlərdə bədən tərbiyəsi və idmanla məşğul olanların sayı qeyd olunmalıdır.

10-cu sütunda kənd yerlərində bədən tərbiyəsi və idmanla məşğul olanların sayı;

11-ci sütunda idman növləri üzrə ödənişli (pullu) seksiyalarda, qruplarda, bədən tərbiyəsi-sağlamlıq yönümlü təşkilatlarda məşğul olanların cəmi nəzərdə tutulur.

Bölmənin doldurulmasına dair nümunə:

Məsələn, bu bölmə ali təhsil müəssisəsi tərəfindən tərtib edilərkən 31-ci sətir üzrə yalnız 1-4, 7-9 və 11-ci sütunlar doldurulmalıdır. Nəzərə almaq lazımdır ki, əgər pullu ödənişlə qruplar fəaliyyət göstərmirsə, 11-ci sütun doldurulmur. Digər sütunlar isə boş qalmalıdır. Sonra isə 31-ci sətir üzrə müvafiq sütunların göstəriciləri olduğu kimi 26-cı sətirdə də təkrar edilməlidir.

## III bölmə. Bədən tərbiyəsi kadrları

Bu bölmədə müxtəlif müəssisə, təşkilat və təhsil ocaqları üzrə bədən tərbiyəsi və idmanı tədris edən bədən tərbiyəsi və idman müəssisələrinin işçilərinin sayı qeyd olunmalıdır. İdman müəssisəsi işçiləri fiziki bədən tərbiyəsi və sağlamlıq ilə məşğul olan və müvafiq normativə uyğun peşəkar sertifikatı olan şəxslərdir.

III bölmə 12 sətirdən (38-49) və 10 sütundan (1-10) ibarətdir.

1-ci sütunda ali və orta ixtisaslı bədən tərbiyəsi təhsili olanların (2-ci və 3-cü sütunların) cəmi göstərilir. 1-ci sütunun 38-ci sətri, 39-49-cu sətirlərinin göstəricilərinin cəmindən ibarətdir.

Burada, 39-43-cü sətirlərdə müxtəlif təhsil ocaqlarında bədən tərbiyəsini tədris edən, bədən tərbiyəsi təhsili olan ştatlı işçilərin ümumi sayı nəzərdə tutulur. 44-49-ci sətirlərdə *məktəbdənkənar təhsil müəssisələri*, bədən tərbiyəsi kollektivləri, idman klubları, idman cəmiyyətləri, Olimpiya idman kompleksləri və digər təşkilatlarda (bədən tərbiyəsi və idman yönümlü, lakin bu siyahıda adı göstərilməmiş dövlət və qeyri-dövlət təşkilatları) bədən tərbiyəsi təhsilli olan ştatlı işçilərin sayı qeyd olunur.

2-ci sütunda–ali bədən tərbiyəsi təhsili bütün işçilərin;

3-cü sütunda– orta ixtisas bədən tərbiyəsi təhsilli bütün işçilərin;

4-cü sütunda-1-ci sütunda qeyd olunmuş bədən tərbiyəsi işçilərinin ümumi say tərkibindən qadınların sayı;

5-ci sütunda- kənardan cəlb olunmuş məşqçilərin sayı qeyd olunur.

Qeyd: Təhsil haqqında məlumat müvafiq ali və yaxud orta ixtisas təhsil müəssisəsinin verdiyi sənədə əsasən göstərilir.

Bölmənin doldurulmasına dair nümunə:

Məsələn, bu bölmə idman klubları tərəfindən tərtib edilərkən 46-ci sətir üzrə müvafiq sütunlar doldurulmalı və bu sətirin sütunlarının göstəriciləri olduğu kimi 38-ci sətirdə təkrar edilməlidir.

III bölmənin 6-10-cu sütunlarında 38-49-cu sətirlərdə göstərilmiş kadrların bütövlükdə (38-ci sətir) və ayrı-ayrılıqdakı (39-49-cu sətirlər) saylarından fəxri idman adlarına malik olanlar haqqında məlumatlar qeyd edilir.

## IV bölmə. İdman növləri üzrə məşğul olanlar

IV bölmədə ayrı–ayrı idman növləri üzrə idmanla məşğul olanların sayı göstərilməlidir. IV bölmə 62 sətir (50-111-ci sətirlər) və 7 sütundan (1-7-ci sütunlar) ibarətdir. İdman növləri üzrə məşğul olanların ümumi sayı (111-ci sətir) 50-110-ci sətirlərin cəmindən ibarətdir.

1-ci sütunda idman növləri üzrə qrupların sayı;

2-ci sütunda bölmələrdə, seksiyalarda, qruplarda məşğul olanların ümumi sayı nəzərdə tutulur. Məşğul olanların ümumi sayı tətbiq olunmuş uçot jurnalı əsasında doldurulur.

3-cü sütunda 2-ci sütundan idman növləri üzrə bölmələrdə, seksiyalarda, qruplarda məşğul olanların ümumi sayından qadınların sayı; 4-6-cı sütunlarda müvafiq olaraq, 5-13, 14-17 və 18-29 yaşda olanların sayı ayrı-ayrılıqda qeyd edilir. 7-ci sütunda isə qeyd olunmuş idman növləri üzrə məşğul olan *əlilliyi olan şəxslərin* sayı haqqında müvafiq sətirlər üzrə məlumat verilir.

## V bölmə. İdmançılar tərəfindən qazanılmış medallar

Bu bölmədə yalnız hesabat ili ərzində təşkilatın idmançıları tərəfindən qazanılmış medallar haqqında məlumatlar verilir.

V bölmə 4 sətir (112-115-ci sətirlər) və 8 sütundan (1-8-ci sütunlar) ibarətdir.

Bölmənin 7-ci "Digər yarışlarda" sütununda idmançıların müvafiq təşkilatların yarışların illik təqdim planlarına daxil edilmiş beynəlxalq yarışlarında əldə etdikləri medalların sayı göstərilir.

## VI bölmə. Maliyyə vəsaitlərinin daxil olması və istifadə edilməsi

Hesabat formasının VI bölməsinin doldurulması zamanı, hesabatı tərtib edən müəssisənin növünü nəzərə almaqla müvafiq sütunlar doldurulur.

VI bölmə 12 sətir (116-127-cü sətirlər) və 16 sütundan (1-16-cı sütunlar) ibarətdir.

Bu bölmədə mövcud maliyyə vəsaitləri və onların istifadəsi daxilolma mənbələrinə və təyinatına görə aşağıda göstərilən qaydada bölüşdürülür:

1-ci sütunda hesabat ilində bütün mənbələr üzrə daxil olan pul vəsaitləri və ilin əvvəlinə olan qalığın cəmi (2 və 3-cü sütunların cəmi) göstərilir.

2-ci sütunda maliyyə vəsaitlərinin hesabat ilinin əvvəlinə olan qalığı;

3-cü sütunda hesabat ilində bütün mənbələr üzrə daxil olan pul vəsaitlərinin cəmi (4 və 5-ci sütunların cəmi) əks etdirilir.

4-cü sütunda büdcədən (dövlət, regional və yerli) daxil olan pul vəsaitlərinin cəmi;

5-ci sütunda göstərilən xidmətlərdən daxilolmaların cəmi (6-8-ci sütunların cəmi);

6-cı sütunda əhaliyə göstərilən pullu xidmətlərdən, biletlərin satışından daxil olan vəsaitlər;

7-ci sütunda icarə haqqında;

8-ci sütunda digər gəlirlərdən, o cümlədən könüllü köçürmələr, ianələrdən və s. daxilolmalar qeyd olunur.

9-cu sütunda il ərzində istifadə olunmuş maliyyə vəsaitlərinin cəmi əks etdirilir (10-15-ci sütunların cəmi);

10-cu sütunda idman mallarının, avadanlıqlarının, eləcə də digər malların və materiallarının alınmasına (dəftərxana və təsərrüfat xərcləri, mətbəə xərcləri, idarənin saxlanması xərcləri, tibbi xərclər, nəqliyyat, digər texniki vasitələrin və s. alınmasına) çəkilən xərclər göstərilir.

11-ci sütunda nəqliyyat, kommunal və kommunikasiya xidmətləri (elektrik və istilik enerjisi, su, qaz, kanalizasiya, poçt-rabitə xidmətləri, internet və s. xidmətlər) haqqının ödənilməsi qeyd edilir.

12-ci sütunda ezamiyyət xərclərinin (gündəlik yemək xərcləri, mehmanxana (mənzil) və yol xərcləri, viza və pasportların alınması ilə bağlı xərclər) ödənilməsi əks etdirilir.

13-cü sütunda – işçilərin əmək haqlarına ayrılan xərclər.

14-cü sütunda işçilərin pensiya təminatı, icbari sosial və tibbi sığortası üzrə hesabat dövründə hesablanmış məbləğlər öz əksini tapmalıdır.

15-ci sütunda idman tədbirlərinin təşkili və keçirilməsi, eləcə də bu tip tədbirlərdə təşkilatın nümayəndələri və idmançılarının iştirakı ilə bağlı və digər bu kimi xərclər.

16-cı sütunda ilin sonuna maliyyə vəsaitlərinin qalığı göstərilir.

Hesabatda göstərilən məlumatlar aparılan sənədlər əsasında ilin əvvəlindən artan yekunla hesabat dövrünün axırına olan vəziyyətə görə verilir.

Hesabatda hər hansı bir göstərici olmadığı halda həmin sütunun sətrində xətt çəkilir.

Hesabatı imzalayan vəzifəli şəxs orada göstərilən məlumatların düzgünlüyünə görə şəxsən məsuliyyət daşıyır.

Hesabat formasını doldurduqdan sonra, hesatın doldurulmasına sərf edilən vaxt, icra edənin vəzifəsi, soy adı, telefon nömrəsi qeyd edilir. Hazır hesabat formasına rəhbərin imzası, soy adı və formanın doldurulma tarıxı göstərilir.

Hesabat formasının əlavəsində iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə bədən tərbiyəsi və idmanın göstəriciləri doldurulur.